# Kaline

*hekayə*





■ **Keyt Çopin**

Qürub çağı idi. Ot tayasının yanında bir cavan qız yatmışdı. O nə vaxt idi ki, dərin yuxuya getmişdi, qəflətən eşitdiyi şaqqıltı səsi onu oyatdı. Qız gözlərini açdı, bir müddət gözlərini buludsuz səmaya zillədi. Sonra əsnədi, gündən qaralmış qollarını hərəkət etdirdi. Bir az da səmaya baxandan sonra ayağa durdu, çit donuna, hətta köynəyinə yapışan samana əhəmiyyət vermədi.

Bir az aralıda onların evi görünürdü. Evin arxası açıqlıq idi, bir tərəfdə pambıq tarlası görünürdü. Yaxınlıqdakı meşənin qırağından dəmir yol xətti keçirdi.

Kalina evlərinə yaxınlaşanda bir az aralıdan sərnişin qatarın dayandığını gördü. Qatar qəflətən dayanmışdı. Kalinaya məlum oldu ki, onu yuxudan oyaqdan qatarın səsi imiş. Deyəsən qatarda problem yaranmışdı, çünki sərnişinlər qatardan düşüb ətrafda gəzişirdilər. Bəziləri ağac altında durmuş, bəziləri isə Kalinegilin evinə tərəf gəlirdi. Kalinenin tarlada işləyən atası da kotana söykənib qatardan düşənlərə baxırdı.

Sərnişinlərin çoxu qadın idi. Onlar hündürdaban tuflidə qorxa-qorxa addım atırdılar. Hərdən də naz-qəmzəylə yubkalarını aşağı dartırdılar, başlarına çətir tutmuşdular. Onların arasında bir neçə kişi vardı, o kişilər nə deyirdisə qadınlar gülüşürdü.

Qadınlar Kaline ilə söhbət etmək istədilər, ancaq onun dilini başa düşmədilər.

Birdən sərnişinlər arasındakı cavan bir oğlan cibindən bir vərəq çıxardıb Kalinenin şəklini çəkməyə başladı. Kaline yerindən tərpənmir, sakitcə dayanıb gözlərini oğlana zilləmişdi.

Oğlan Kalinenin şəklini çəkib qurtaranda qatardan onları səslədilər. Onların hamısı qaça-qaça gedib qatara mindi. Bir neçə dəqiqə sonra qatar gözdən itdi.

Qatar gözdən itəndə Kaline özünü qəribə hiss etdi. O qatarın arxasınca uzun-uzadı baxdı. Onun üçün qatarın hardan gəlib hara getməyi çox maraqlı idi.

O ata-anasına bu barədə sual verdi. Onlar qeyri-müəyyən cavab verdilər: Qatar uzaqlardan gəlib uzaqlara gedir.

Kaline bir gün relslərin üstü ilə bir mil yol getdi ki, qatar gələndə bayraq yelləyən qoca kişi ilə söhbət etsin. Qoca kişi Kalinenin suallarının cavabını bilirdi. O dedi ki, qatardakı sərnişinlər şimal tərəfdəki böyük şəhərlərdən cənub tərəfdəki böyük şəhərlərə gedirlər. Qoca kişi cənub tərəfdəki böyük şəhəri tanıyırmış. Hətta bir vaxtlar orda yaşadığını da dedi. Onun bacısı indi orda yaşayırmış. Kişi dedi ki, Kaline kimi bir qız onun bacısına ev işlərində kömək etsə o çox sevinər. O dedi ki, Kaline gedib bacısının yanında qulluqçu işləsə hər ay normal pul qazana bilər.

Beləcə., Kaline o şəhərə getdi qatarla. Təzə donunu, təzə ayaqqabısını geyindi. Qoca kişi səliqəsiz xətlə bir məktub da yazdı bacısına, Kalineyə verdi ki, ona çatdırsın. Qoca kişinin bacısı kərpicdən tikilmiş bir evdə yaşayırdı. Evin yaxınlığında körpü var idi. İlk günlər Kaline üçün çox çətin idi. O, bu şəraitə uyğunlaşa bilmirdi. Ancaq tezliklə hər şeyə öyrəşdi. Qadın xeyirxah bir evdar qadın idi.

Kaline onun evində bir həftə qalandan sonra qadın onu sorğu-suala tutdu, şəhərdə nəyi xoşlayıb-xoşlamadığını soruşdu. Kaline şəhərdə çox şeyi xoşladığını dedi. O hərdən gedib körpülərə baxır, hətta yaxınlıqdakı mağazaya gedirdi. Mağazaya girən kimi onu tərifləyir, onun səbətinə balaca şirnilər atırdılar.

Bir həftə sonra qadın ondan yenə də bu şəhərdə nəyi xoşladığını soruşdu. Bu dəfə qız qadına heç nə demədi, o hönkürüb ağlamağa başladı O gec də olsa başa düşmüşdü ki, o heç də böyük şəhəri, o şəhərin adamlarını görmək istəmirmiş. O, həmin gün qatar xarab olanda tut ağacının altında onun şəklini çəkən oğlanı axtarırmış.

24 iyun 2017

KASPI.AZ